**Mehriban Rövşən qızı Hüseynova**

**UOT: 338.658; JEL: L52.**

# Respublikamızda yeyinti sənayesi – ərzaq təhlükəsizliyinin əsas təminatçısı kimi

***Xülasə***

*Yeyinti sənaye məhsullarına olan tələbatın ödənilməsi əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm arqument, göstərici olmaqla, cəmiyyət üzvlərinin yaşayış imkanlarının nə dərəcədə reallaşdırmasını şərtləndirir. Bu proses əslində fasiləsiz, davamlı xarakter daşıyır, bəşəriyyət heç bir zaman istehlakı dayandıra bilməz. Yeyinti sənaye məhsullarının istehlakının dayandırılması hər bir fərdin fiziki mövcudluğunun sonu deməkdir. Azərbaycan Respublikası regionlarının əhalisinin mühüm yeyinti sənaye məhsulları ilə təminatının daha da yaxşılaşdırılması digər maddi və qeyri - maddi istehsal və xidmət sahələrinin də üzvi sürətdə inkişafını səbəbləndirir və ölkənin iqtisadi təhlükəsizlik problemləri həll olunur.*

***Açar sözlər:*** *yeyinti sənayesi, ərzaqla təminat, dövlət proqramları, iqtisadi təhlükəsizlik, əhalinin alıcılıq qabiliyyəti.*

## Giriş

Azərbaycan Respublikasında iqtisadi bölgələrində əhalinin başlıca yeyinti sənaye məhsulları ilə təminatlarının daha da yaxşılaşdırılması həllini gözləyən vacib problemlərdəndir. Buna görə də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən bu zəruri məsələnin yüksək səviyyədə həll edilməsi məqsədilə bir sıra mühüm strateji qərarlar və tapşırıqlar müvafiq idarəetmə strukturlarına tapşırılmış və bildirilmişdir ki, bu problemlər daim diqqət mərkəzində qalmaqla, qarşıya qoyulan mühüm işlərdəndir. Bu baxımdan Azərbaycan Respublikasının regionların sosial - iqtisadi inkişafına dair (2004 - 2008), (2009 - 2013) və (2014 - 2018) illəri əhatə edən Dövlət proqramları, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", həmçinin digər qəbul edilmiş islahatlar milli və sektorial səviyyədə inkişaf hədəfləri arasında zəruri uzlaşmanı təmin etməklə, aqrar sahənin, o cümlədən onunla bilavasitə bağlı olan yeyinti sənayesinin növbəti illərdə inkişafının təminatına şərait yaratmışdır. Hər bir ölkənin əhalisinin ərzaq problemi bütün dövrlərdə aktuallıq kəsb etməklə bəşəriyyətin inkişaf tarixində heç bir zaman öz əhəmiyyətini itirməmişdir. Başlıca yeyinti sənaye məhsulları ilə əhalinin təmin edilməsi bütün dövrlərdə özünü biruzə versə də, dünya səviyyəsində bu problem öz əhəmiyyətini saxlamaqdadır. Bu problemin həlli bilavasitə onunla şərtlənir ki, cəmiyyət üzvlərinin, hər bir fərdin fiziki mövcudluğu onun zəruri qida məhsullarına olan tələbatının ödənilməsindən bilavasitə asılıdır. Bu mühüm, zəruri tələbatın ödənilməsi isə istehlakın maddi əsasını təşkil edən kənd təsərrüfatı, ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması ilə bağlıdır.

## Yeyinti sənayesinin inkişaf istiqamətləri

Azərbaycan Respublikası regionlarının əhalisinin mühüm yeyinti sənaye məhsulları ilə təminatının daha da yaxşılaşdırılması digər maddi və qeyri - maddi istehsal və xidmət sahələrinin də üzvi sürətdə inkişafını səbəbləndirir və ölkənin iqtisadi təhlükəsizlik problemləri həll olunur. Ümumiyyətlə, bu problemin həlli əhalinin həyat tərzini, onun hansı iqtisadi səviyyəyə uyğun yaşamasını, həyat tərzlərinin hansı keyfiyyət ölçülərində mövcudluğunu göstərir. Əhalinin yeyinti sənaye məhsulları itehsalı ilə təminatının yaxşılaşdırılması cəmiyyətin mühüm iqtisadi - sosial vəzifələrindəndir. Məhz bu baxımdan, bəşəriyyətin bütün tarixi ərzində ərzaq təminatının yaxşılaşdırılması beynəlxalq miqyas almaqla, ölkənin milli iqtisadi təhlükəsizliyində də öz aktuallığını saxlamışdır. Hazırki

*©Mehriban Rövşən qızı Hüseynova Azərbaycan Texnologiya Universiteti, doktorant.E-mail: huseynova.mehriban.89@gmail.com.*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

şəraitdə dünya miqyasında ərzaq ehtiyatlarının qıtlığından təqribən 1 mlrd. insan əziyyət çəkir [5, s.319]. Ərzaq qıtlığını aradan qaldırmaq məqsədilə dünya dövlətlərinin səyləri birləşdirilərək "Ümumdünya ərzaq təhlükəsizliyi haqqında Roma deklarasiyası" qəbul edilmiş 2020-ci ilə qədər dünyada doyunca qidalanmayanlarının sayının iki dəfəyə qədər azaldılması və cəmiyyət üzvlərinin ərzaq təminatının yaxşılaşdırılması vəzifəsi qarşıya qoyulmuşdur. Ərzaq təhlükəsizliyi dedikdə - burada birincisi respublika sahələrinin imkanlarından maksimum istifadə etməklə, xarici ticarət üzrə lazım olan az tapılan, yerli istehsal şəraitində istehsal olunmayan, qıt xammal və ərzaqları ölkəyə cəlb etməklə və bu sahədə elmi əsaslanmış milli bazar tələblərinə və mənafelərinə uyğun təsərrüfatçılıq siyasəti yürüdülməlidir [5, s.107]. Hazırda beynəlxalq səviyyədə ərzaq məhsullarına olan tələbatın ödənilməsi imkanları ekoloji və təbii - iqlim faktorlarının təsiri səbəbindən də məhdudlaşır. Yüksək səviyyədə kimyəvi kübrələrin, pestisidlərin tədqiqi və torpaqların erroziyası, ekoloji vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdirməklə yanaşı, ekoloji təmiz məhsul istehsalına olan tələbatı aktuallaşdırır. Bu istiqamətdə qəbul edilmiş Dövlət Proqramlarına əsasən respublikamızda regionların əhalisinin zəruri yeyinti məhsulları ilə təminatının daha dolğun ödənilməsi üçün kompleks tədqiqat işlərinin aparılması tələb olunur. Bu vacib problemlə bağlı bu istiqamətdə bütün əlaqədar sahələr vahid bir mərkəzdə koordinasiya olunmalı və qarşıda duran konkret vəzifələrin icra olunması məqsədə uyğun hesab edilməlidir.

Ölkə əhalisinin zəruri yeyinti sənaye məhsulları ilə təmin edilməsi ayrı - ayrı ərazilərdə yaşayan əhalinin alıcılıq qabiliyyəti ilə bilavasitə bağlı olduğundan, bu proses daha çox bölgənin maliyyə imkanlarından, dövlət büdcəsinin mövcud vəziyyətindən bilavasitə asılıdır. Son illərdə bu aktual problemin həllində ölkənin maliyyə qurumları daha aktiv rol oynayırlar, zəruri yeyinti sənaye məhsullarının istehsalını, ümumiyyətlə aqrar - sənaye kompleksinin inkişafını stimullaşdırır, sənaye məhsullarının rəqabətqabiliyyətinin yüksəldilməsi yolları axtarırlar. İqtisadi islahatlar dövründə mühüm məsələlərdən biri yeyinti sənayesi sahəsində özəlləşdirilmiş müəssisələrin fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi zəruri məsələlərdəndir [4, s.132]. Əhalinin zəruri yeyinti sənaye məhsulları ilə təminatının daha dolğun ödənilməsi istiqamətində yüksək texnologiyaların tətbiqi ilə bağlı tədqiqatlar aparılır, daha səmərəli strategiyalar hazırlanaraq həyata keçirilir. Problemin əsaslı sürətdə həll edilməsi məqsədi ilə aşağıdakıların yerinə yetirilməsi məqsədəuyğun hesab edilməlidir:

- ✓ əhalinin konkret yeyinti sənaye məhsullarına olan tələbatlarının öyrənilməsi və perspektiv dövr üçün onun həcminin artırılması istiqamətində bazarların monitorinqi;
- ✓ bölgələrin əhalisi üçün əlavə ərzaq ehtiyatlarının yaradılması;
- ✓ həmin bölgə daxilində bəzi yaşayış məntəqələrində çatışmayan yeyinti sənaye məhsullarına olan tələbatın ödənilməsi üçün digər yerlərdən ərzaq köməkliyinin göstərilməsi;
- ✓ bölgələrin digər iqtisadi regionlar ilə əlaqələrinin daha da genişləndirilməsi və ümumiyyətlə investisiya, innovasiya siyasətinin, yüksək texnologiyaların tətbiqi genişləndirilməlidir.

Qeyd edilənlərlə bağlı regional səviyyədə əhalinin yeyinti sənaye məhsulları ilə təmin edilməsi konkret fizioloji normalar və müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində əhalinin əsas növ qida məhsullarına olan tələbatının yerli istehsal hesabına davamlı olaraq ödənilməsi ilə bağlı kompleks tədbirlər sistemini özündə əks etdirir. Əhalinin başlıca yeyinti sənaye məhsulları ilə təmin edilməsi məsələləri mövcud inzibati rayonların daxili istehsalı, hesabına ölkə əhalisinin istehlakının təmin edilməsini özünə əks etdirdiyindən, bu məqsədə nail olunması yerli sahibkarların, əmtəə istehsalçılarının fəaliyyətlərinin stimullaşdırılmasından həmin kompleksə innovasiya məsələlərinin tətbiqindən bilavasitə asılıdır. Araşdırmalar göstərir ki, bölgələrdə əhalinin sosial durumu, alıcılıq qabiliyyəti və iqtisadi



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

maarifləndirmə səviyyəsi hələ də yetərincə yüksək deyildir. Bütün hallarda istehsalçı nisbətən ucuz xammala üstünlük verir və istehlakçıların əksər hissəsi üçün o qədərdə önəmli deyildir ki, o yüksək qiymətə yerli məhsul əldə etsin. Odur ki, bu prosesləri dövlət orqanları tənzimləməli, istehsalçının xərclərinin müəyyən hissəsini subsidiyalaşdırmaqla yerli məhsulun qiyməti ilə, daxil olunan məhsulun qiyməti arasında tarazlıq yaratmalıdır. Bunlar edilməzsə həmin sahəsinin inkişafında çətinliklər aradan qalxmayacaq. Yəni, sahənin inkişafı üçün konkret real iqtisadi mexanizmlər tətbiq olunmalı, aparılan işlərin yerinə yetirilməsi nəticəsində nəzərə çarpacaq səmərə əldə edilməsinə şərait yaranmalıdır. Bu məqsədə nail olunması üçün əhalinin zəruri yeyinti sənaye məhsulları ilə təmin edilməsinin şərtləndirəcək yerli istehsalın tələbatı ödəyən məhsullar üzrə idxal problemlərinin tənzimlənməsi istiqamətləri müəyyənləşdirilməli, aqrar - ərzaq bazarının qorunmasına yönələn kompleks tədbirlər həyata keçirilməlidir [3, s.321].

**Yeyinti sənayesinin inkişafının dövlət tənzimlənməsi**

Dövlətin iqtisadi siyasəti ölkədə yeyinti məhsullarının ümumi həcmində idxal olunan məhsulların xüsusi çəkisinin müasir şəraiti 10 - 20% - dən çox olmamaq şərti ilə ərzaq məhsulları asılılığını aradan qaldırmağa yönəldilməlidir. Bu cür tədbirlər transformasiya yönümlü dəyişikliklərin hazırki mərhələsində dövlətin iqtisadi təhlükəsizlik siyasətinin prioritet istiqamətini təşkil etməlidir. Bu sahənin inkişafını təmin etmək və aqrar - sənaye sahələrinin inkişafını strateji məqsədlərinə nail olmaq məqsədilə bölgələrin sosial - iqtisadi, təbii - milli xüsusiyyətlərinin nəzərə alınması olduqca zəruridir. Təbii ki, bu zaman digər iqtisadi amillərin də təsiri ön plana çəkilməlidir. Bu amillərin nəzərə alınması onunla bağlıdır ki, ölkəmiz müstəqil dövlət kimi beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmuşdur və bu baxımdan dünyada baş verən proseslərə uyğun tənzimlənmiş iqtisadi siyasət həyata keçirilməlidir. Eyni zamanda, dövlət bu proseslərdə ölkənin strateji maraqlarının qorunması istiqamətində iqtisadi - sosial siyasət yeritməlidir və beynəlxalq bazarda baş verən konyuktur dəyişikliklərinə adekvat reaksiya göstərməlidir, daxili bazar konkret situasiyaya uyğun daha dərindən tənzimlənməlidir.



Respublikamızda əlverişli təbii - iqlim şəraiti, münbit torpaq ehtiyatları mövcuddur və bu potensialdan istifadə etməklə nəinki yüksək keyfiyyətli yeyinti sənaye məhsulları istehsalını təmin etmək, həm də bir sıra məhsullar üzrə dünya bazarına keyfiyyətli, rəqabət qabiliyyətli yeyinti sənaye məhsullarını ixrac etmək mümkündür. Hazırki şəraitdə dövlətin iqtisadi siyasətinə uyğun olaraq xarici ölkələrə bir sıra meyvə - tərəvəz və bostan bitkiləri ardıcıl sürətdə ixrac edilir. Neft gəlirlərindən istifadə etməklə aqrar - sənaye kompleksinə investisiyalar yatırılır və bununla da gələcəkdə neftsiz, qazsız Azərbaycanın alternativ ixrac sektorunun formalaşdırmaq olar və bunun perspektivlərinin daha da genişləndirmək həllini gözləyən vəzifələrdəndir. Beləliklə, müasir şəraitdə əhalinin zəruri yeyinti sənaye məhsulları ilə təminatının yaxşılaşdırılması ölkədə həyata keçirilən aqrar siyasətin prioritet istiqamətinə çevrilməklə eyni zamanda, mühüm iqtisadi - sosial problemləri də həll edir. Dövlətin iqtisadi, sosial siyasətinin əsas vəzifəsi səmərəli istehsal strukturları yaratmaqla əhalinin ərzaq, sənayenin isə kənd təsərrüfatı xammalına olan tələbatının yerli istehsal hesabına ödəmək məqsədilə çevik sosial - iqtisadi mexanizm formalaşdırmaqdan, eləcə də mövcud potensialdan səmərəli istifadəni təmin etməkdən ibarətdir [2, s.18]. Məhz bu baxımdan aqrar - sənaye kompleksinin mövcud potensialı ölkənin ərzaq kompleksinin mövcud potensialı ölkənin ərzaq kompleksinin təmin edilməsinə doğru istiqamətləndirilməlidir. Məlum həqiqətdir ki, heç bir ölkə ərzaq təhlükəsizliyini 100% - lik hədlərdə təmin etmək iqtidarında deyildir. Bu isə ondan irəli gəlir ki, bütün növ məhsullar üzrə tələbatı tamamilə yerli istehsal hesabına ödənilməsinə nail olunması problemi, istehsalın müqaisəli üstünlüklər nəzəriyyəsi baxımından da əlçatmaz

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

görünür. Odur ki, ölkə üçün strateji əhəmiyyətli prioritet məhsulların istehsalı əsas götürülməklə, bölgələrin ixtisaslaşma istiqaməti də nəzərə alınmalıdır.

**Yeyinti sənayesinin regionallarda təşkili məsələləri**

Məlum olduğu kimi, yeyinti sənaye məhsullarına olan tələbatın ödənilməsi regional səviyyədə əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm arqument, göstərici olmaqla, cəmiyyət üzvlərinin yaşayış imkanlarının nə dərəcədə reallaşdırmasını şərtləndirir. Bu proses əslində fasiləsiz, davamlı xarakter daşıyır, ən azı ona görə ki, bəşəriyyət heç bir zaman istehlakı dayandıra bilməz. Yeyinti sənaye məhsullarının istehlakının dayandırılması hər bir fərdin fiziki mövcudluğunun sonu deməkdir. Lakin hələlik regional səviyyədə universal infrastruktur sisteminin yaradılmaması, dövlət tərəfindən lazımi stimullaşdırma tədbirlərinin həyata keçirilməməsi nəticəsində adı çəkilən sahələrdə davamlı inkişafı istənilən səviyyədə təmin etmək mümkün olmamışdır. Əhalinin ərzaq, sənayenin xammala olan tələbatını yerli istehsal hesabına ödənilməsi səviyyəsinin yüksəldilməsi, rasional istehsal potensialından səmərəli istifadənin təmin edilməsindən torpaqların münbitliyinin yüksəldilməsindən, bütovlükdə, effektiv aqrar - sənaye kompleksinin formalaşdırılmasından asılıdır. Faktiki məhsuldarlıq səviyyəsinin potensial məhsuldarlıq göstəricilərindən, yüksək texnologiyaların tətbiqi səviyyəsindən, optimal təşkilati - iqtisadi tədbirlərin həyata keçirilməsi mexanizmi ilə sıx bağlıdır. Sənaye məhsullarının yüksək rəqabət qabiliyyətinə malik olmaları məqsədi üçün yüksək maliyyə vəsaiti tələb etdiyindən, bu tədbirləri mövcud sahibkarların, istehsalçıların məhdud resursları hesabına həyata keçirmək mümkün deyildir. Odur ki, dövlət tərəfindən yeyinti sənaye məhsulları istehsalı intensiv amillər hesabına artırılması məqsədilə kompleks və məqsəd yönlü proqramlar işlənib hazırlanmalı və həyata keçirilməlidir.



Dövlət həmin əmtəə istehsalçılarının qarşılaşdıqları faktiki problemlərdən daha çox strateji əhəmiyyət kəsb edən məsələlərin həllinə yardımçı olmalıdır. Hazırda bu sahədə islahatların yaratdığı potensial hesabına istehsal və xidmət sahələri fəaliyyət göstərirlər və bu potensialdan alınan nəticələrin səmərəliliyi isə sonsuz deyildir. Nəzərə almaq lazımdır ki, bu sahənin mövcud potensialının kəskin ərzaq qıtlığına və qiymətlərin kəskin artmasına gətirib çıxara bilər. Doğrudur, bu vəziyyəti sabitləşdirmək məqsədi ilə idxal kanallarından istifadə edilə bilər. Bu isə qısa zaman kəsiyindən vəziyyəti sabitləşdirə bilər. Strateji baxımdan respublikada neftin gələcəkdə tükəndiyi zamanda, kənd təsərrüfatı məhsullarının idxalı özünü doğrultmayacaqdır. Odur ki, neftdən daxil olan vəsait hesabına səmərəli qeyri - neft sektorunun əsas tərkib hissələrindən biri olan yeyinti sənaye kompleksi formalaşdırılmaqla gələcək dövrlərdə Azərbaycan Respublikasında ərzaq kompleksi dövlətin milli təhlükəsizliyinin təmin edəcək ən mühüm sahə olacaqdır. Perspektiv dövrdə respublika əhalisinin zəruri yeyinti sənaye məhsulları ilə daha dolğun təminatına beynəlxalq, qloballaşma problemlərinin az təsirli olacaq. Bu məqsədlə ölkə rəhbərliyi bütün sahələrə diqqət yetirməklə yanaşı, qeyd etdiyimiz sahənin inkişafına da xüsusi diqqət və nəzarət işlərini həyata keçirməlidir. Bu məqsədlə son zamanlar Respublikamızda xüsusi proqramlar hazırlanmış və həyata keçirilməkdədir.

**Nəticə**

Ölkəmizin əlverişli şəraiti, əhalinin peşəkar vərdişləri, eləcə də uzun müddət formalaşmış əmək bölgüsü və ixtisaslaşma məsələlərinin nəzərə alınması vacibdir. Hazırki şəraitdə mövcud regional əmək bölgüsü və ixtisaslaşma səviyyəsinə əsasən bölgələrin inzibati rayonlarında taxıçılıq, üzümçülük, meyvəçilik, tərəvəzçilik, maldarlıq, arıçılıq və s. sahələrdə istehsalı inkişaf etdirmək üçün əlverişli şəraitə malikdir. Bütün bu araşdırmalardan belə bir nəticə əldə olunur ki, yeyinti sənayesində istehsal olunan məhsulların qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi zəruridir. Dövlət tənzimlənməsinin əsas məqsədi ölkənin strateji maraqlarının qorunmasına nail olmaqdan, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaqdan

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ibarətdir. Qiymətlərin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi bir sıra amillərlə bağlıdr: xüsusilə iqtisadiyyatın sahə strukturu; onun rəqabət qabiliyyəti; sahənin spesifik xüsusiyyətləri. Bu baxımdan yeyinti sənayesində dünya təcrübəsində istifadə olunan qiymətlərin tənzimlənməsinin bir sıra metodlarının tətbiq olunması böyük əhəmiyyətə malikdir. Bazarda yeyinti sənaye məhsulları qiymətlərinin tənzimlənməsinə yönəldilmiş fəaliyyətin nə dərəcədə səmərəli olması ilk öncə qiymətlərin mövcud səviyyəsinə təsir edən amillərin müəyyən edilməsindən asılıdır.

**Ədəbiyyat**

1. “1995 - 1999-cu illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı”.
2. “2008 - 2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”.
3. Alıyev, İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri / İ.H.Alıyev. – Bakı: – 2017. – 391 s.
4. Hümbətov, Y.Ə. Səhmdar cəmiyyətlərin təşkili və idarə edilməsi. Monoqrafiya. / Y.Ə.Hümbətov. – Gəncə: – 2008. – 183 s.
5. Hümbətov, Y.Ə. Azərbaycan iqtisadiyyatı / Y.Ə.Hümbətov, F.C.Kərimov, X.V.Qurbanova – Bakı: Avropa, – 2018. – 396 s.

***Мехрибан Ровшан кызы Гусейнова***

***Пищевая промышленность в нашей стране является основным поставщиком продовольственной безопасности***

***Резюме***

*Удовлетворение спроса на пищевую промышленность является важным фактором, который характеризует уровень жизни населения и определяет степень, в которой члены общества могут реализовать свои средства к существованию. Этот процесс, по сути, является непрерывным, и человечество никогда не сможет остановить потребление. Прекращение потребления продуктов пищевой промышленности - это конец физического существования каждого человека. Дальнейшее улучшение обеспечения населения регионов Азербайджанской Республики необходимой пищевой промышленностью приводит к органическому развитию других секторов материального и нематериального производства и услуг, а также рассматривается вопрос эконо-мической безопасности страны.*

***Ключевые слова:*** *пищевая промышленность, продовольственное обеспечение, государственные программы, экономическая безопасность, покупательная способность населения.*

***Mehriban Rovshan Huseynova***

***The food industry in our country is the main provider of food security***

***Summary***

*Meeting the demand for food industry is an important factor that characterizes the standard of living of the population, and determines the extent to which members of society can realize their livelihoods. This process, in fact, is continuous, and humanity can never stop consumption. Discontinuing consumption of food industry products is the end of each individual's physical existence. Further improvement of the provision of the population of the regions of the Republic of Azerbaijan with essential food industry results in the organic development of other material and non-material production and services sectors, and the economic security of the country is being addressed.*

***Keywords:*** *food industry, food supply, government programs, economic security, purchasing power of the population.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.02.2020.***
***Çapa qəbul olunub: 14.02.2020.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*